Ədəbiyyat qəzeti

32 6 mart 2021-ci il

# "Qarabağ bülbülləri" ansamblının 50 illik yubileyinə aid yeni kulturoloji layihə




Azərbaycan Respublikası Gənclər Fondunun müsabiqədənkənar qrant proqramı çərçivəsində maliyyələşdirdiyi, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi tərəfindən ötən ilin dekabrın ortalarından etibarən həyata keçirdiyi "Qarabağ bülbülləri - 50": "Yaralı səs" - Vətənpərvərlik mövzusunda sənədli film çəkilişi və kitab nəşri" adlı növbəti üçaylıq kulturoloji layihə haqqında YYSİB sədri Aydın Xan Əbilovun açıqlaması.

Vaxtilə Ağdamda yaradılmış və dünyaya səs salmış "Qarabağ bülbülləri" ansamblı keçmiş SSRİ ilə yanaşı, dünyanın onlarla ölkəsində kreativ formada - milli musiqimizin dili ilə Azərbaycan həqiqətlərini yayıb. Ötən il yaranmasının 50 illik yubileyi sükutla qarşılansa da, Qarabağ və işğal altında olan rayonlarımızla yanaşı, Ağdam şəhəri də düşmənlərdən azad edildikdən sonra mədəniyyətimizin bu tarixi hadisəsini xüsusi qeyd etməyin zamanı gəlib çatıb.

"Qarabağ bülbülləri" ansamblının yeniyetmə üzvləri - vaxtilə dünyanı gəzərək Qarabağı və Azərbaycanı tərənnüm etmiş bu sənət kollektivinin yaradıcı əməkdaşlarından ikisi hər zaman Ağdamda - cəbhə bölgəsində yaşayıb. Onlar həzin səsləri ilə, ifalarıyla hərbçilər qarşısında çıxışlar edib, rayonun əksər ictimai-mədəni hadisələrində iştirak etməklə vətənpərvərlik nümunəsinə çevriliblər. Belə vətənsevər yaradıcı şəxsləri gənclərə tanıtmaq zamanımızın əsas vəzifələrindən biridir. 30 ilə yaxın Qarabağda - yarısı işğal altında olan Ağdamda yerləşən ön cəbhə xəttinin yanındakı kənddə yaşayan "Qarabağ bülbülləri" ansamblının solisti və yaradıcısının həyat və yaradıcılıq uğurlarına həsr olunmuş sənədli-bədii film və kitabın hazırlanmasına böyük ehtiyac duyulur. Yalnız bu yubiley hadisəsi ilə dünyaya Qarabağın əzəli torpağımız olmasını sübut edə bilərik. Bu layihə bu cür fədakar şəxslər haqqında sənədli film və kitab hazırlamaqla gənclərə örnək olan sənət adamları vasitəsilə İKT - İnternet və sosial paylaşım portallarının, sosial şəbəkələrin imkanlarından yararlanaraq həqiqətlərimizi 55 milyonluq soydaşlarımız arasında, eləcə də dünyada yaymağı qarşısına məqsəd qoyur.

Çəkilən film və hazırlanacaq kitabla bir daha bütün dünyaya nümayiş etmək mümkündür ki, torpaqlarımızın 20 faizi yağı düşmənlərin tapdağı altında 30 il inildəsə də, insanlarımız hər zaman böyük qələbəmizə inandılar və Ali Baş Komandanın rəhbərliyi altında Müzəffər ordumuzun igidlərinin qəhrəmanlığı nəticəsində onu əldə etdik, Qarabağımızı geri qaytardıq.

Layihə vətənpərvərliklə maraqlanan yeniyetmələr, yaradıcı-kreativ gəncləri, eləcə də İnternet və sosial şəbəkələr vasitəsilə respublikanı, eləcə də dünyada yaşayan yeni nəsil nümayəndələrini, xaricdə yaşayan soydaşlarımızı - gənclər və tələbələri əhatələməyi qarşısına məqsəd qoyub, bu kulturoloji layihə aşağıdakı məqsədlərə çatmaqda soydaşlarımıza, gənclərə motivasiya verəcək.

Layihə çərçivəsində aşağıdakı işlərin görülməsi nəzərdə tutulur:

1. "Qarabağ bülbülləri"nin tarixi və fədakar solistləri timsalında ana torpaqlarımıza sevgi-sayğını yüksəltmək.

2. "Qarabağ bülbülləri" ansamblının tarixi əks olunan kitab nəşrə hazırlanacaq, kağız və elektron formada yayımlanacaq.

3. "Qarabağ bülbülləri" haqqında sənədli-bədii film çəkiləcək, nümayişi təşkil olunacaq, yayımlanacaq.

4. İnternet və sosial şəbəkələr, KİV, eləcə də yeni media vasitəsilə ölkəmizdə, eyni zamanda dünyada Azərbaycan və Qarabağ həqiqətlərini kreativ formada təbliq edəcək.

5. Fədakar musiqiçilərin timsalında gənclər arasında vətənpərvərliyin yeni üslubda təbliği aparılacaq.

Layihənin yetərincə təbliği və ictimaiyyətə çatdırılması işi düzgün işlənmiş media-plan vasitəsilə gerçəkləşdiriləcəkdir. Virtual aksiyaların təşkili, İnternet, Feysbuk, Tvitter, Youtube və b. şəbəkələrdə bu istiqamətdə fəaliyyətlərin dəstəklənməsi, ayrıca sosial şəbəkə resursunun yaradılması, gənclərin, yeniyetmələrin, məktəblilərin intellektual səviyyəsini yüksəltmək üçün fəaliyyətlərin qurulmasına xüsusi diqqət ayrılacaqdır. Fəaliyyətlər zamanı layihənin təqdimatına və təbliğinə xüsusi önəm veriləcəkdir: istər ölkə daxilində, istərsə də dünyada əngəlli gənclərin kreativ-kulturoloji potensialının, ədəbi resurslarının geniş yayılmasına səbəb olacaq. Müvafiq qanunvericilik aktları, qanunlar, normativ sənədlər, eyni zamanda Azərbaycan Gənclər Fondunun tələblərinə uyğun olaraq qiymətləndirmə indikatorları müəyyənləşdiriləcək və ona uyğun olaraq qiymətləndirmə aparılacaq.

***Ayxan Əbilli***

*Yeni Yazarlar və Sənətçilər İctimai Birliyini Analitik-İnformasiya Bölümünün əməkdaşı*